# TƏQVİMDƏN SƏTİRLƏR

**21 avqust:** Yazıçı, dramaturq, jurnalist **Seyfəddin Dağlı** Abşeronun Xızı kəndində (1922—1983) anadan olmuşdur. C. Cabbarlıya həsr olunmuş "Bahar oğlu" romanı, komediyaları, satirik hekayələr kitabları var. Uzun illər "Kirpi" jurnalının redaktoru işləmişdir.

1966-cı ildə Çin Xalq Respublikasında **xunveybin hərəkatı** başlamışdır. Bir sıra kadrlara divan tutulmuş, lakin bu hərəkat gözlənilən müsbət nəticəni verməmişdir.

**22 avqust:** Bolqarıstanın dövlət xadimi, BXR qəhrəmanı, "Xalqlar arasında sülhü möhkəmləndirməyə görə" Beynəlxalq mükafat laureatı **Sola Draqoyçeva** 1898-ci ildə anadan olmuşdur. İnqilabi fəaliyyətinə görə 1925-ci ildə ölümə məhkum olunmuş, lakin dünya demokratik ictimaiyyətinin təzyiqi ilə 1926-cı ilin yanvarında bu cəza ömürlük katorqa ilə əvəz olunmuşdur. 1932-ci ildə amnistiyaya düşmüş və SSRİ-yə gəlmişdir.

**23 avqust:** 1993-cü ildə Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycanın **Füzuli rayonunu işğal olunmuşdur**.

1514-cü ildə **Çaldıran döyüşü** olmuşdur. Səfəvilərlə Osmanlılar arasında gedən bu vuruşmada Osmanlı ordusu Xoy, Mərənd və Təbrizi tutmuşdur. Lakin sultan I Səlim Təbrizdə cəmi altı gün qalmışdır. Bu döyüş Səfəvi dövlətinin hərbi-siyasi nüfuzuna ağır zərbə olmuşdur.

**24 avqust:** 1993-cü ildə erməni silahlı birləşmələri tərəfindən Azərbaycanın **Cəbrayıl rayonu işğal olunmuşdur.**

**25 avqust: Əməkdar artist Vəfa Fətullayeva** (1945—1987) dünyaya gəlmişdir. Akademik Milli Dram Teatrında işləmiş, televiziya tamaşalarında iştirak etmişdir.

**26 avqust:** Bütün Qafqazın şeyxi **Hacı Allahşükür Paşazadə** 1949-cu ildə anadan olmuşdur.

Azərbaycan bayrağını təhqir edən erməni zabitini öldürmüş **Ramil Səfərov** 1977-ci İldə anadan olmuşdur. 13 aprel 2006-ci idə Budapeşt məhkəməsi ona 30 il müddətində əfv olunmaq hüququ olmamaqla ömürlük həbs cəzası kəsmişdir.

837-ci ildə Xilafət qoşunları Xürrəmiləri məğlub edib, **Bəzz qalasını** yandırmışlar.

1071-ci ildə **Alp Arslan** 50 minlik qoşunla Bizans imperatoru Roman Diogenin 200 minlik ordusunu darmadağın etmişdir.

Cənubi Azərbaycanda milli hərəkatın lideri Seyid **Cəfər Pişəvəri** (1892—1947) Xalxal mahalının Zeyvə kəndində anadan olmuşdur. Milli azadlıq hərəkatının qələbəsindən sonra Milli Məclisin qərarı ilə hökumət təşkil edib və hökumətin baş naziri olmuşdur.

**27 avqust:** 1991-ci ildə Naxçıvan Ali Məclisi muxtar respublikanın ərazisində **Sov.İKP-nin və komsomol təşkilatlarının fəaliyyətinin dayandırılması** haqqında qərar qəbul etmişdir.

Amerika ədəbiyyatında realizmin ən görkəmli nümayəndəsi, yazıçı **Teodor Drayzer** (1871—1945) anadan olmuşdur.

# Şahmatçımız Dünya Çempionatında

2015-ci ilin 31 iyul-10 avqust tarixində Polşada Şahmat məsələlərinin əyani həlli üzrə Dünya Çempionatı keçirilmişdir. Çempionatda dünyanın 22 ölkəsindən 100-dən artıq şahmatçı çempionatın mükafatları uğrunda mübarizə aparmışdır.



Çempionatda Azərbaycan yığma komandası dörd nəfərlik heyətlə təmsil olunmuşdur. Şahmat məsələlərinin həlli üzrə yığma komandamızın tərkibində Qəbələ rayonunu təmsil edən Beynəlxalq usta, 15 qat Azərbaycan çempionu olmuş Araz Alməmmədov III yerə layiq görüləræk qaliblər sırasında qərarlaşmışdır.

Dünya Çempionatında yer tutması münasibətilə beynəlxalq dərəcəli şahmatçımız Araz Alməmmədovu bir daha təbrik edir, bundan sonrakı idman həyatında nailiyyətlər arzulayır və uğurlarının davamlı olmasını arzu edirik.

**Elçin OSMANOV,**
**Gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**

# Sənətkarlıq evində görüş

Vəndam qəsəbə Sənətkarlıq Mərkəzində qəsəbənin ali məktəblərə yüksək bal ilə qəbul olunmuş məzunların görüşü keçirilmişdir.

Tədbirdə iqtisadiyyat üzrə fəlsəfə doktoru, həmyerlimiz Nurlan Bağırov iştirak etmişdir.

Tədbiri sənətkarlıq mərkəzinin direktoru Azər Azayev açaraq görüş iştirakçılarını salamlamışdır. Qəsəbənin müəllimlərindən Aynurə Eyubova, Firuz Bəşirov, kitabxanaçı Sevda Nadirova yeni qəbul olmuş məzunlardan 700 bal toplamış Xəyalə Əfəndiyeva, Günay Mahmudlu (559 bal), Fatma Seyidova (590) bal), Nurlan İsazadə (541 bal) çıxış edərək öz sevinclərini iştirakçılarla bölüşdülər.

Görüşün sonunda iqtisadiyyat üzrə fəlsəfə doktoru Nurlan Bağırov ali məktəblərə yeni qəbul olunmuş məzunlara öz tövsiyyələrini vermiş və müllifi olduğu kitabının disklərini hədiyyə etmişdir.

Görüş qarşılıqlı dialoq şəraitində sona çatmışdır

**Samir AZAYEV,**
**Vəndam qəsəbəsi.**

# Ölkənin sığorta bazarı böyüyüb

Bu ilin yanvar-iyul aylarında Azərbaycandakı 27 sığorta şirkətinin xətti ilə 283,15 milyon manat sığorta haqqı toplanılıb. Bu rəqəm 2014-cü ilin eyni dövrü ilə müqayisədə 12,5 faiz çoxdur.

Yeddi ayda sığorta şirkətlərinin həyata keçirdiyi ödənişlər isə 104,8 milyon manat təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 34,4 faiz çoxdur.

Hesabat dövründə sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının müqabilində 37 manat ödəniş edilib. Bu göstərici 2014-cü ilin yanvar-iyul aylarında isə 31 manat olub.


## Bütün iş adamlarına, vətəndaşlara!

### "Qəbələ" qəzetinin reklam xidməti sizinlədir

Siz sərfəli müqavilə qiymətləri ilə hər nömrəsi 2.300 nüsxə tirajla çap olunan və rayonun bütün yaşayış məntəqələrində kütləvi tirajla yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı xüsusi idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

Qəzetin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini, toy şənliklərini, qeyri-adi günlərini təbrik etmək sizə böyük şərəf və xoş duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamlar və elanlarla da qəzet sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt buyurun, gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: 050-328-11-42.


# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat komissiyası tərəfindən 23 oktyabr 2002 il tarxdə 244 saylı sərəncamla Zərgərli kənd sakini Muradxanov Qiyas İlyas oğlunun adına verilmiş JN- 3715 №-li (kodu 90600001) **Torpaqdan müvəqqəti istifadə hüququna dar Şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Polis Şöbəsi tərəfindən Qəbələ şəhər sakini Məmmədli Cəlal Ziyəddin oğlunun adına verilmiş seriya AZE 06635627 №-li şəxsiyyət vəsiqəsi AB 253589 №-li **sürücülük vəsiqəsi və avtomaşından istifadə hüququna dair etibarnamə itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 fevral 2001-ci il tarixdə 03 saylı qərarla Qəbələ şəhər sakini Əzimov Əsabəli Saleh oğlunun və ailə üzvlərinin adına verilmiş JN 2792 A nömrəli (kodu 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.


Məsul katib
N. R. Atakişiyev.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.



ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru



Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir. Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.